**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İDARƏ HEYƏTİNİN**

**Q Ə R A R I**

**№ 08/2**

**Bakı şəhəri** **04 mart 2020-ci il**

**"Sığortaçının tələb olunan kapitalının minimum məbləği"nin müəyyən edilməsi barədə**

Sığortaçıların tələb olunan kapitalının minimum məbləğinin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 79.2-ci maddələrinə əsasən

**Q Ə R A R A A L I R:**

1. Sığortaçıların tələb olunan kapitalının minimum məbləği aşağıdakı kimi müəyyən edilsin:

1.1. Qeyri-həyat sığortası fəaliyyəti üzrə - 5 000 000 (beş milyon) manat;

1.2. Həyat sığortası fəaliyyəti üzrə - 10 000 000 (on milyon) manat;

1.3. Müstəsna olaraq təkrarsığorta fəaliyyəti üzrə - 20 000 000 (iyirmi milyon) manat;

1.4. Sığortaçının təkrarsığorta fəaliyyəti üzrə - 5 000 000 (beş milyon) manat;

1.5. Aqrar sığorta orqanının adından aqrar sığorta sisteminin idarəedilməsini həyata keçirən müştərək sığortaçı üçün – 1 000 000 (bir milyon) manat.

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Elman Rüstəmov**